## Azərbaycanın inkişaf ssenariləri

Ölkəmizdə həyata keçirilən güclü maliyyə siyasəti və dinamik iqtisadi inkişaf, ixrac potensialının yüksək artımı respublikamızın maliyyə sabitliyinin möhkəmlənməsinə dərin zəmin yaradıb və valyuta gəlirlərinin çoxalmasını təmin edib. 2012-ci ilin 9 ayı ərzində ölkəmizin strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artıb və maliyyə ehtiyatlarının həcmi 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri valyuta ehtiyatlarında 5 milyard dollardan çox artım olub. Bu, orta inkişafa malik dövlətlərin müvafiq göstəriciləri sırasında ən yüksək, eyni zamanda, MDB regionunda ən pozitiv inkişaf indikatorudur. Bu, ölkənin davamlı inkişafı üçün güclü zəmanətdir.

***Strateji valyuta ehtiyatları***
***50 milyard dollara çatacaq...***

Strateji valyuta ehtiyatlarının həcminə görə Azərbaycanı dünya miqyasında əsas ölkələrdən biri adlandıran Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxışı zamanı qeyd edib ki, ölkəmizdə mövcud olan güclü maliyyə potensialı makroiqtisadi inkişafın yüksəlməsinə öz təsirini göstərməkdədir: «Ölkənin ərazi ölçülərinə və əhalinin sayına görə, hesab edirəm ki, əgər valyuta ehtiyatlarımızı adambaşına hesablasaq, biz dünya miqyasında ən qabaqcıl yerlərdən birindəyik. Çox sevindirici hal ondan ibarətdir ki, böyük investisiya layihələrinin dövlət xətti ilə həyata keçirilməsinə baxmayaraq, strateji valyuta ehtiyatlarımız azalmır, əksinə, artır».

Hazırda Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsulun (ÜDM) 70%-nə çatır ki, bu göstərici üzrə ölkəmiz dünyada ilk onbeşlikdədir. Onu da qeyd edək ki, respublikamız bu vəsaitlərin beynəlxalq maliyyə bazarlarında idarəetməyə verilməsindən də hər il böyük həcmdə dividend əldə edir. Azərbaycan hökuməti valyuta portfelindəki rezervlərin bir hissəsini dünya maliyyə strukturlarında yerləşdirərək beynəlxalq idarəetməyə verib və ötən dövrdə ehtiyatlardan əldə olunan gəlirlər 500 milyon dolları keçib. Strateji ehtiyatların artmasında və ölkəmizin maliyyə imkanlarının yaxşılaşmasında vəsaitlərin idarə olunması ən perspektivli və yüksək gəlir gətirən sahə hesab olunur. Dövlət başçısının tapşırığına uyğun olaraq, bu ehtiyatların şaxələndirilməsinin həyata keçirilməsinə başlanıb. Burada əsas məqsəd etibarlılıq, valyuta ehtiyatlarının idarə olunmasının səmərəliliyinin daha da artırılmasıdır.

Mərkəzi Bankın (MB) proqnozlarına görə, 2012-ci ilin sonuna strateji valyuta ehtiyatları 50 milyard dolları ötəcək. MB-nin ortamüddətli dövr üzrə ssenarilərinə görə, 2012-2020-cü illərdə zəngin valyuta ehtiyatlarının ölkəmizə daxil olmasının fonunda ölkə iqtisadiyyatında maliyyə sabitliyi möhkəmlənəcək və iqtisadiyyatın bütün sahələrində yüksək indikatorlar müşahidə olunacaq. Makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dayanıqlı iqtisadi artımın və iqtisadiyyatın modernləşdirilməsinin təmin olunmasına dəstək verən siyasətin dərinləşdirilməsi, inflyasiyanın aşağı salınması, qeyri-neft sektorunun aparıcı sahəyə çevrilməsi, məşğulluq səviyyəsinin artırılması, çevik makroiqtisadi idarəetmənin həyata keçirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması qarşıdakı illərdə hökumətin fəaliyyət strategiyasının ana xəttini təşkil edəcək. Qarşıdakı on ildə Azərbaycanın strateji valyuta ehtiyatları 100 milyard dolları ötəcək...

***Azərbaycan orta gəlirli dövlətlər***
***qrupunda mövqeyini möhkəmləndirib***

BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsində qeyd olunur ki, «orta gəlirli ölkələr» qrupuna daxil olmaq qısa müddətdə mümkün olmur. 1950-ci ildən sonra belə bir inkişafa 13 ölkə nail olub. Azərbaycan bu qrupun yüksək şkalasında yer almaq üçün ən stabil və böyük əminlik doğuran dövlətdir. Bu iqtisadi güc, sözsüz ki, ölkənin və onun insanlarının yaxşı yaşayışının göstəricisini müəyyən edir. Ölkəmizdə hazırda hər nəfərə düşən ÜDM-in həcmi 10 min dolları ötüb və bu, Azərbaycanın yaxın beşillikdə bütün strateji hədəflərə çatmasına əsaslı zəmin yaradır. Bununla yanaşı, qeyri-neft sektorunda artım ÜDM-də 40-45% yer tutmaqla maliyyə imkanlarının daha da yaxşılaşmasına təkan vermiş olacaq.

İllik iqtisadi artımın təxminən 6-7% olması, maliyyə və makroiqtisadi sabitliyin indiki tempdə saxlanması, valyuta ehtiyatlarının il ərzində 5-10 milyard manat artması və digər makro amillər Azərbaycanın «orta gəlirli ölkələr» qrupunun daha yüksək şkalasına çatmasına baza yaradır. Yaxın

gələcəkdə isə respublikamızın qarşıya qoyduğu strateji hədəf «yüksək gəlirli dövlətlər qrupu»nda yer almaqdan ibarətdir.

***Azərbaycanın beynəlxalq reytinqi yüksəlir***

Azərbaycanda həyata keçirilən davamlı iqtisadi islahatlar iqtisadi inkişafı sürətləndirməklə yanaşı, respublikamızın beynəlxalq miqyasda nüfuzunun və reytinqinin yüksəlməsinə əhəmiyyətli dərəcədə zəmin yaradıb. Azərbaycan Prezidenti son bir ildə respublikamızın beynəlxalq miqyasda mövqeyinin möhkəmləndiyini, dünyanın ən mötəbər iqtisadi qurumlarının hesabatlarında irəlilədiyini bildirib: «Davos İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətliliyi ilə bağlı yeni cədvəl dərc etmişdir və Azərbaycan o siyahıda 46-cı yerdədir. MDB məkanında birinci, dünya miqyasında 46-cı. Keçən ilə nisbətən biz 9 pillə yuxarı qalxmışıq. Yəni bu, onu göstərir ki, Azərbaycanın iqtisadi inkişafı və uğurları iqtisadi islahatlarla bağlıdır və bu hesabatda, eyni zamanda, makroiqtisadi vəziyyətlə bağlı cədvəl dərc edilmişdir. Makroiqtisadi sabitliyə görə Azərbaycan dünya miqyasında 18-ci yerdədir». Mövcud inkişaf fonunda ölkəmizin beynəlxalq reytinqinin güclənməsi Azərbaycanı dünya top-reytinq şkalasında A zonasına, yəni ən yüksək investisiya-kredit reytinqinə çatmağa yaxınlaşdırıb. Respublikamızda biznes mühitinin vəziyyəti, ticarət qaydalarının sadələşdirilməsi, sahibkarlıq sektorunda rəqabət qabiliyyətinin təmin olunması, idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, tikinti üçün icazələrin verilməsi, əmlakın qeydiyyatının aparılması, investorların hüquq və maraqlarının qorunması, gömrük rəsmiləşdirilməsi və digər parametrlər Azərbaycanın yaxın 2-3 ildə dünya reytinq şkalasında A zonasına çatmasını şərtləndirir.

Elbrus CƏFƏRLİ